# İlham Əliyevdən gələcək nəsillərə dövlətçilik əmanəti

## Xalq Cümhuriyyətinin yadigarı olan bayrağımız bu gün bütün ərazilərimizdə dalğalanır

"Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 106-cı ildönümüdür. 1918-ci il mayın 28-də yeni qurulan Azərbaycan Xalq Cümhuriyyəti milli tariximizin qızıl səhifələrindən biridir. Çünki bu tarix Azərbaycanın öz ərazisinə sahib çıxdığı, dünya dövlətləri sırasına qoşulduğu bir gündür".



Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Kamran Bayramov deyib. Deputat bildirib ki, 1918-ci il mayın 28-də Azərbaycan xalqı özünün və Şərqin ilk demokratik, hüquqi, dünyəvi və parlamentli respublikasını yaradıb. Yeni qurulan cümhuriyyət öz üzərinə götürdüyü çətin tarixi vəzifəni imkanlarının ən son həddində çalışaraq şərəflə yerinə yetirdi. Azərbaycanın ilk parlamenti, hökuməti və dövlət aparatı təşkil edildi, ölkənin sərhədləri müəyyənləşdirildi, bayrağı, himni və gerbi yaradıldı, ana dili dövlət dili elan edildi, dövlət quruculuğu sahəsində ciddi tədbirlər həyata keçirildi. Ölkənin ərazi bütövlüyü və milli təhlükəsizliyi təmin edildi, qısa müddətdə yüksək döyüş qabiliyyətli hərbi hissələr yaradıldı, milli tələblərə və demokratik prinsiplərə uyğun dövlət orqanları quruldu, maarifin və mədəniyyətin inkişafına xüsusi diqqət yetirildi. Məlum səbəblərdən qısa ömür sürən Azərbaycan Xalq Cümhuriyyəti süquta uğrasa da, onun şüurlarda bərqərar etdiyi müstəqillik ideyası unudulmadı.

K.Bayramov qeyd edib ki, Azərbaycan Xalq Cümhuriyyəti demokratik ənənələrə söykənərək, vicdan azadlığının qorunmasına xüsusi önəm verib, azsaylı xalqların nümayəndələrinin 1918-ci ilin dekabrın 7-də açılan parlamentdə yer almalarına şərait yaradıb: "Tarixən müxtəlif mədəni təbəqələrə malik olan ölkədə dövlət-vətəndaş münasibətlərinin sivil modeli yaradılmışdı. Şərqə demokratiyanın ilk işığını gətirən Azərbaycan Xalq Cümhuriyyəti de-fakto və de-yure olaraq iri dövlətlər tərəfindən tanınmış beynəlxalq hüququn subyektinə çevrilmişdi. Müstəqilliyi böyük dövlətlər tərəfindən tanınmış Azərbaycan Xalq Cümhuriyyətinin beynəlxalq münasibətlər sistemində iştirakı Sovet Rusiyasının birbaşa hərbi müdaxiləsi ilə sona çatmışdı. Milli dövlət süqut etsə də, milli dövlətçilik duyğuları qəlblərdən silinməmişdi. Milli yaddaş məhv olmamışdı".

XX yüz ilin sonlarında Azərbaycanın yenidən istiqlala qovuşduğunu, cümhuriyyət ənənələrinə sadiqliyini bəyan etdiyini xatırladan deputat deyib ki, ölkəmiz bu gün dünyanın siyasi və iqtisadi dairələrində diqqət mərkəzində olan müstəqil və regionun lider dövlətidir. Müstəqilliyinə yenidən qovuşan Azərbaycan suverenliyini qoruyub saxlamağı bacardı. Çətin siyasi-iqtisadi dövrdə hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyev Azərbaycan dövlətçiliyinin qorunması üçün qətiyyətli tədbirlər gördü, ölkədə davamlı ictimai-siyasi sabitliyi bərqərar etdi. Həmin dövrdə Ermənistanın Azərbaycan torpaqlarına təcavüzü, daxili münaqişələr ölkəmizi çətin vəziyyətə salmışdı. Məhz belə şəraitdə xalqın təkidi ilə hakimiyyətə gələn Ulu Öndər dövlətimizin və dövlətçiliyimizin xilaskarı oldu. Bu gün müstəqil olan Azərbaycan 1918-1920-ci illərdə mövcud olmuş Xalq Cümhuriyyətinin layiqli varisidir. Ümummilli Lider bugünkü Azərbaycan Respublikasını Xalq Cümhuriyyətinin varisi hesab edərək demişdi: "Bu dövlət, bu quruluş 1918-ci ildə yaradılmış Xalq Cümhuriyyətinin varisidir. Bütün dövlət onun varisidir, bütün xalq onun varisidir. Müstəqilliyi və qanı bahasına alınmış azadlığı qorumaq yolunda xalqımız nə qədər təzyiqlərə məruz qaldı, torpaqlarımız qəsb olundu, taleyimizdən didərginliyin, əlilliyin, şəhidliyin qara naxışları keçib getdi. Lakin azadlıq aşiqlərinin gərgin əməyi və mübarizəsi sayəsində əsrin sonunda Azərbaycanın müstəqilliyini qoruyub saxlamaq mümkün oldu".

K.Bayramov diqqətə çatdırıb ki, ötən illər ərzində atılmış hər bir addım və qəbul olunmuş hər bir qərar doğma Azərbaycan torpaqlarının işğaldan azad olunmasına xidmət edib. "Bu gün Ulu Öndərin layiqli davamçısı, Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Respublikasında demokratik, hüquqi, dünyəvi dövlət, vətəndaş cəmiyyəti quruculuğu prosesi uğurla davam etdirilir. Bu sahədə qazanılmış nailiyyətlər qürur verir. Yeni əsrin yeni lideri İlham Əliyev 20 ildə Azərbaycanı həm siyasi-iqtisadi, həm də hərbi cəhətdən qüdrətli, dünyada sözü keçən dövlətə çevirib. Məhz bu güc sayəsində Qarabağın 30 il davam edən işğalına 44 gündə son qoymaq mümkün olub. Azərbaycan tarixi ədaləti bərpa edib. Ölkəmiz dünyaya öz siyasi və hərbi gücünü nümayiş etdirdi", - deyə o əlavə edib.

Deputat vurğulayıb ki, Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı kimi Azərbaycan bayrağının bu gün artıq işğaldan azad olunmuş Şuşada dalğalanması Prezident İlham Əliyevin gələcək nəsillərə unudulmaz dövlətçilik əmanətidir. Xalqımız 28 May Müstəqillik Gününü torpaqlarımızın işğaldan azad edilməsinin sevinci, Vətən müharibəsi Zəfərinin qüruru ilə yaşayır. Artıq azadlığına qovuşmuş torpaqlarımızda şəhər və kəndlərimiz yenidən qurulur, yeni yollar çəkilir, Böyük qayıdış mərhələli şəkildə həyata keçirilir.

Xankəndidə Zəfər Günü münasibətilə hərbi paradın keçirilməsi hər bir azərbaycanlıda sözlə ifadə olunmayacaq qədər böyük qürur hissi yaşatdı.

Bir sözlə, ərazi bütövlüyümüzün bərpası, suverenliyimizin təmin olunması Prezident İlham Əliyevin tam müstəqil siyasətinin şah əsəridir.

***Əsmər QARDAŞXANOVA, "Azərbaycan"***

Azərbaycan. - 2024.- 28 may, №111.- S.16.